Oyun üçün artıqdır

(Psixoloji hekayə)

Vilyam Şekspir:
Hoyat teatrdı, insanlar aktyor

Onların dostluğu bir tasadüfdən başlamışdı...

Həmişə oldüğu kimi həyətdə uşaqlar ucadan qışqıra-qışqıra futbol oynayırdılar. Ruslan da narada dayanıb onların oynuna tamaşa edə-edə iki üç il bundan qabağı xatırlayırdı. O da öz yaşıdları ilə hər gün dərsdən gələn kimi top qovalayardı. Amma indi universitetdə psixoloqiya ixtisası üzrə birinci kurs tələbəsi idi. Boş vaxtlarında müntəzəm idman məşqlərinə gedir, özüqüclülükə məşğul olurdu. Günü-gündən kişilşərdi, sinəsi enlənmiş, əzələləri geyindiyi nazik köynəyinə iz salırdı. Tezəcə buraxdığı qısa saçqal və nazik bığ onu çox yaraşıqlı göstərirdi. Digər oğlanlar kimi, o da qızların diqqətini çəkməsi ilə qürurlanırdı.

Ruslanı xatırladan qəflətən uşaqların dalaşması qopardı. İki oğlan rəqib komandadan bir oğlanı yerə yıxıb döyürdülər. Bir hərəyətdə yaşasalar da, Ruslan onların heç birini yaxından tanımırdı. Amma hər halda uşaqları ayırmağı özünə borc bildi. Yaxına gedib savaşan uşaqları ayırdı. Yerdə yıxılıb qalmış ağzı-burnu qan içində olan oğlanın boynundan yapışıb ayağa qaldırdı. Üstünü çırpdı.

- Niyə boş yerə savaşırsız?

Oğlan ağlıya-ağlıya:

- Gərmürsən, cigalluğ edirlər - dedi.

Ruslan güldü:

- Əşi. dünya dağılmır ki, elə bil dünya çempionunda oynayırsız. Adam hər şeydən öhrt saxlamaz. Yaxşı, el-üzünü yu, bacını yuxarı tut, burnundan qan gəlməsin.

Oğlan əli ilə burun parçanı sıxıb qanaxmanı kəsməyə cəhd etdi. Bu zaman Ruslan onun üzünü gördü. O, qara qıvrım saçlı, iri gözlü, qalın dodaqlı, çox yaraşıqlı bir oğlan idi. Ruslan qeyri-ixtiyari soruşdu:

- Sənin adın nədir?

- Farid. İndi oğlan daha ağlamırdı.

- Yaxşı Farid, gəl seni evinə apanım, deyəsən çox əzilmisən. Ruslan cavabı gözləmədən tərəz tanış olduğu oğlanın qolundan tutub dartdı. Farid müqavimət göstərmədi, əksinə, sakitcə onun yanına düşdü. Yolda qısa söhbətlərindən malum oldu ki, Faridgil onların binasından iki-üç bina aralıda tərəz tikilmə 20 mərtəbali binaya yenice köçmələr. Atası mühendis, anası həkim işləyir ve o, bu ailanın yegane uşağıdır. Faridgilin binalarına çatanda, "Mən özüm gedərəm, sağ ol", - deye mızıldandı.

Ertəsi gün Ruslan universitəndən evlərinə qayıdanda keçmiş məktəblərinin qarşısında Faridlə rastlaşdı:

- Sən də burda oxuyursan?

- Hə, bir aydır ki, bu mektəbə keçmişəm.

Onlar birlikdə söhbət edə-edə evlərinə doğru addımlamağa başladılar. Məlum oldu ki, Farid sakkizinci sinifdə oxuyur. İncəsəna böyük maraqlı var. Əlavə olaraq musiqi təhsili alır.

Farid Ruslanın tam əksinə, çox ince bədənli, oğlan uşaqlarına xas olmayan gözəlliyə malik idi. Yolda gedə-gedə Farid gözəlliyi oğlan oğrun Ruslanı nəzərdən keçirdi. Onun bədən quruluşuna həsəd apardı. Özünün de belə bədəninin olmasını çox istəyərdi. Amma neynəmeli, idmanı heç sevmirdi. Üreyinden onunla dost olmaq istəyini keçirdi. Ele bil Ruslan onun üreyinden keçənləri eşitdi:

- İstəsən dostluq edək.

- Edək - deye Farid tələsik sevincle bildirdi.

Əslinde, Farid "ura" deye qışqırmadan özünü güclə saxladı. İndi Faridin onu himayə edəcək güclü, bütün qızların həsedlə baxdığı idmançı gökəmli dostu vardı. O, indiden Ruslanla dostluğuna görə fəxr etməyə başlamışdı. Özü de ildırım sürəti ile Ruslana qarşı xüsusi bir hissin yarandığını başa düşdü. Bu hissi dostluq hissi kimi qəbul etdi. Əslinde, o, valideynlere besledyi övladlıq sevgisinden başqa heç bir hiss yaşamamışdı. Ona görə de Ruslana yaranan hissi dostluq hissi kimi qəbul etdi. Ruslan da Farid kimi gözəl, ağıllı ve nacib bir dostunun olmasından mamnun qalmışdı. Evlerine çatanda artıq neçə illərin dostuları kimi ayrıldılar.

Hemin gündan başlayaraq dostlar bir yerde evden çıxır, Faridin mektəbine çatana kimi piyada birlikde yol gedir, sonra bir-biri ile xüdahafizləşib ayrılırdılar. Farid mektəbə, Ruslan universitete gedirdi.

Birazdan bir-birlərinin evlərinə gedib-gelməye başladılar. Her iki ailə ovladlarının dostluğu üzərindən bir-birine yaxınlaşırlar. Ruslanın valideynlərinin her kişi hekim idi. Ona göre, Faridin anası ile çox tez dil tapıb, dostlaşmışdılar. Aile şənliklərinde bir-birinin en əziz qonağı olurdular.

Ruslanla Farid arasındakı münasibət qətdikcə derinləşirdi. Artıq onlar özlərini iki bədəndə bir ruh kimi hiss edirdilər. Bir gün bir-biri dərinləşmə görməyəndə darıxırdılar. Vaxtlarının çoxu bir yerde keçirdi.

İllər sürətle keçirdi. Ruslan üçüncü kursda oxuyanda, Farid yüksək balla İncəsənət Universitetinin Aktyorluq fakultəsine daxil oldu. İndi onlar her iksi tələbə heyatı yaşayırdı.

Dostların en xoşladıqları məşguliyyet ya birlikde şəherde gezmek, ya da iksinden birinin evinde birlikde vaxt keçirmekdi. İndi Ruslan tam bir cəngavar, formasını almışdı. Farid onun əzələli bədəninə baxmaqdan doymurdu. Ruslan da ela bil bunu başa düşürmüş kimi çox vaxt yarıçılpaq halda Faridin qarşısına keçir, müxtəlif bədən hərəkatları nümayiş edirdirdi. Hətta Faridin ona həsədla tamaşa etməsindən zövq alırdı...

Dostların en xoşladıqları məşguliyyet ya birlikde şəherde gezmek, ya da iksinden birinin evinde birlikde vaxt keçirmekdi. İndi Ruslan tam bir cəngavar, formasını almışdı. Farid onun əzələli bədəninə baxmaqdan doymurdu. Ruslan da ela bil bunu başa düşürmüş kimi çox vaxt yarıçılpaq halda Faridin qarşısına keçir, müxtəlif bədən hərəkatları nümayiş edirdirdi. Hətta Faridin ona həsədla tamaşa etməsindən zövq alırdı...

Əslinde, Ruslan da Faridi qısqanmağa başlamışdı. Amma Faridden fərqli olaraq, yalnız onun oğlanlarla dostluğuna reaksiya verirdi. Farid kimi küsmədə de, dəmhal Faridlə yaxınlığı etmək istəyən başqa oğlanlardan ayrılmaq üçün çox çox behane gətirirdi: "Birdan o, narkoman olar". Ya ona "bilirsən neca ailde tərbiyə alıb, belka pozğun ailenin uşağıdır". Farid Ruslandan bela sözlər eşitməkden çox xoşlanırdı. O, dostunun onu qıcqandığını başa düşür, bundan menəvi hezz alır ve ruhen rahatlanırdı. Bir-biri ona sərgələ qıcqandıq olanlan adamlardan qaçmağa, onların seyrek olduqu yerlerde gezməye söyq edirdi.

Son vaxtlar Bulvarda bir küncde, alaqarınlıq bir yerde özləri üçün daimi görüş yeri tapmışdılar. Bu, köhne dəbde hazırlanmış ikinərfərlik taxta oturacaq idi. Demek olar ki, o tereflerde adamlar çox nadir hallarda gönürdü. Onların oturacağı istənilən vaxt onları gözləyirdi. Əfraf yaxşı işıqlandırılmadığından onlara diqqət edən de olmurdu. İndi de Faridin yanağı, na de Ruslanın əzələli bədəni problem çıxarmırdı.

Günlər bir-birini qovaraq aylara, illərə dönürdü. Bir dəfə Faridi sınayıcı nəzərlərlə Ruslana baxa-baxa soruşdu:

- Neca bilirsən, belka biz dostmüze üçündü bir dost da seçək. Sence, üçlükde daha maraqlı olmazmı?!

Əslinde, Farid Ruslanın bela bir fikre düşüb-düşməyəcəyi ile maraqlanırdı. O, Ruslanla onun arasında üçüncü bir adamın ola bilecəyini tasavvürüna gətirəndə dəli olurdu.

Ruslan Faridin üzuna baxmadan, avtomatik cavab verdi:

- "Üçüncü artıqdır devimini eşitməmisən?

Farid:

- O deyim oğlan-qız munasibəti ile bağlıdır. Oğlanlar arasındakı münasibətə aidiyyəti yoxdur.

Ruslan:

- Na fərqi var. mehəbbat mahəbbətdir da, ya dostluq mehəbbət, ya sevgili mehəbbəti.

Farid qalbinde Ruslanın sözlərinden çox sevindi. Amma uzde özünü laqeyd göstərərək, söhbəti davam etdirməye bəşlədi:

- Yaxşı, bas sevgili neca. Yəni birdan üçüncu dostumuz qız oldu ya ya birimiz bir qıza vurulduq, onda neca yeni "üçüncü artıqdır" deyəcəksən?! Onda hansımızı seçəcəksən?

Faridin özünü qızla mühayisə etmasi Ruslanda qanba bir hiss yaratdı. Bir anlığa Farid onun üçün sevgiliya çevrildi ve dəmhal o hiss yox oldu. Ruslan özünde Faridlə bağlı ani yaranan hissdan diksindi. Dəmhal hayacanla dedi:

- O başqa məsələdir, onu buna şərqıdırma.

Ruslanın bu sözlərindən Faridin üzəyi sıxıldı. Dostunun bir qızla tanış olduqdan sonra onu unudacağından, onu itirəcəyindən inddan kədərlənməye başladı. O, Ruslan kimə güzəşte getməyacəyini anlamağa başlayırdı.

- Yaxşı, sənə psixoloq kimi bir sual verim. Oğlanla dost olduğun kimi, qızla da dost olmaq olar?

- Hə, elbette, dost dostdur da, na fərqi, qız, ya oğlan?!

- Yaxşı, dost olduğun qızı sonra seva bilərsən?

Ruslanın yadına psixologiyadan mühazirədə məhəbbətlə bağlı rektorun söylədikləri fikirlər düşdü...

(Ardı var)

AZAD